# Vaqif Əlixanlı mükafatlandırıldı



Noyabrın 2-si Azərbaycan Yazıçılar Birliyində görkəmli nasir, dramaturq, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Vaqif Əlixanlı 80 illik yubileyi münasibətilə mükafatlandırılıb. Tədbiri giriş sözü ilə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar açaraq Vaqif Əlixanlının həyat və yaradıcılığı haqqında danışıb. Vaqif Əlixanlının həm ədəbi fəaliyyətini, həm də Bədii Tərcümə və Ədəbi Əlaqələr Birliyinin sədri, bundan əvvəl isə "Qobustan" jurnalının baş redaktoru kimi səmərəli fəaliyyətini yüksək qiymətləndirdiyini bildirən AYB sədri onu yubileyi münasibətilə təbrik edib və yeni yaradıcılıq uğurları arzulayıb. Sonra Yazıçılar Birliyinin mükafatı Vaqif Əlixanlıya təqdim edilib.

Tədbirdə iştirak edən Azərbaycan Yazıçılar Birliyinin katibləri, yazıçı-dramatuq, Əməkdar incəsənət xadimi Elçin Hüeynbəyli, şair-tərcüməçi Səlim Babullaoğlu Vaqif Əlixanlını yaradıcılığı haqqında yüksək fikirlər söyləyərək yubliyarı təbrik ediblər.